

# *Muxtar KAZIMOĞLU-70*

Görkəmli ədəbiyyatşünas alim, akademik Muxtar Kazımoğlunu 70 illik yubileyi münasibətilə təbrik edirik.

Muxtar Kazım oğlu İmanov 28 may 1955-ci ildə Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Axura kəndində anadan olub. 1977-ci ildə Bakı Dövlət Universitetinin filologiya fakültəsini bitirib. 1980-1983-cü illərdə AMEA Nizami adına Ədəbiyyat İnstitutunun "Ədəbiyyat nəzəriyyəsi" ixtisası üzrə əyani aspiranturasında təhsilini davam etdirib. 1984-cü ildə "Müasir Azərbaycan nəsrində psixologizm" mövzusunda namizədlik, 2007-ci ildə "Azərbaycan folklorunda gülüşün genezisi və poetikası" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 2009-cu ildə dosent, 2016-cı ildə professor elmi adlarını alıb. 2014-cü ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 2017-ci ildə həqiqi üzvü seçilib.

Əmək fəaliyyətinə Şərur rayonunun Həmzəli kənd səkkizillik məktəbində Azərbaycan dili və ədəbiyyat müəllimi kimi başlayıb. Aspirantura təhsilindən sonra, 1983-1992-ci illərdə Nizami adına Ədəbiyyat İnstitutunun mifologiya şöbəsində kiçik elmi işçi, elmi işçi və böyük elmi işçi, 1992-2000-ci illərdə "Yazıçı" nəşriyyatının baş redaktoru vəzifələrində işləyib. 1999-cu ildə Bakı şəhəri M.Ə.Rəsulzadə Bələdiyyəsinə üzv seçilib. 2000-2003-cü illərdə M.Ə.Rəsulzadə Bələdiyyəsində sosial və ekoloji məsələlər daimi komissiyasının sədri olub. 2001-2003-cü illərdə AMEA "Folklor Sarayı" Elmi-Mədəni Mərkəzində böyük elmi işçi, Mərkəz 2003-cü ildə Folklor İnstitutuna çevrildikdən sonra Türk xalqları folkloru şöbəsinin aparıcı elmi işçisi kimi fəaliyyət göstərib. 2011-ci ildən 2024-cü ilədək AMEA Folklor İnstitutunun direktoru vəzifəsində çalışıb. 2011-ci ildən 2024-cü ilədək "Folklorşünaslıq" ixtisası üzrə Dissertasiya Şurasının və Folklor İnstitutu Elmi Şurasının sədri olub. 2011-2019-cu illərdə Dövlət İmtahan Mərkəzində ədəbiyyat fənni üzrə Elmi-metodiki seminarın rəhbəri və Ekspert Şurasının sədri kimi fəaliyyət göstərib. 2012-ci ildə İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının üzvü seçilib. 2017-ci ildən 2023-cü ilədək həmin şuranın sədri olub. 2024-cü ilin iyun ayından etibarən əmək fəaliyyəti Azərbaycan Dillər Universiteti ilə bağlıdır. Hazırda həmin Universitetdə Azərbaycan ədəbiyyatı kafedrasının müdiridir.

Muxtar Kazımoğlu ədəbiyyatşünaslıq və folklorşünaslığa aid çoxsaylı əsərlərin müəllifidir. Azərbaycan nəsrində psixologizm probleminin nəzəri əsaslarının müəyyənləşdirilməsinə, Azərbaycan xalq gülüş mədəniyyəti ilə bağlı elmi konsepsiyanın yaradılmasına, folklor və yazılı ədəbiyyat əlaqələri ilə bağlı mübahisəli məsələlərin araşdırılmasına, eposun qeyri-səlis məntiq nəzəriyyəsi baxımından öyrənilməsinə, folklorşünaslığın bir sıra digər aktual problemlərinə həsr edilən 12 kitabı - "Müasir Azərbaycan nəsrində psixologizm", "Gülüşün arxaik kökləri", "Xalq gülüşünün poetikası", "Folklorda obrazın ikiləşməsi", "Epos. Nəsr. Problemlər.", "Portretlər", "Folklor həm keçmiş, həm də bu gündür", "Sənət qayğıları", "Azərbaycan folklorunda gülüşün genezisi və poetikası", "Söz haqqında söz", "Epos qəhrəmanlarında qeyri-səlislik", "Şifahi sənət və yazılı ədəbiyyat" kimi kitabları, 300-dən artıq elmi məqaləsi, eləcə də çoxsaylı publisistik yazıları nəşr olunub. Folklorun toplanması, tərtib və nəşr olunması ilə də ardıcıl məşğul olan alim bu sahədə bir çox kitabların, o cümlədən "Bu yurd bayquşa qalmaz", "Zəngəzur folkloru" (Azərbaycan folkloru antologiyası. VII kitab), "Şərur folklor örnəkləri" (I kitab), "Gədəbəy folklor örnəkləri" (I kitab), 10 cildlik "Qarabağ: folklor da bir tarixdir", 16 cildlik "Güney Azərbaycan folkloru", 4 cildlik "Qərbi Azərbaycan folkloru", "Şifahi sənət və yazılı ədəbiyyat" toplularının layihə rəhbəri və tərtibçilərindən biridir. Qarabağdan toplanmış 30-a yaxın nağıl süjetinin beynəlxalq Aarne-Tompson kataloqunda qarşılığının olmaması onu deməyə əsas verir ki, Muxtar Kazımoğlunun rəhbərliyi ilə 2011-ci ildən AMEA Folklor İnstitunda başlanan toplama, tərtib, nəşr və tədqiq işləri dünya folklorşünaslığında janrlar üzrə elmi təsnifatların aparılması baxımından da mühüm əhəmiyyət daşıyır. Alimin bir çox əsərləri xarici ölkələrdə çap edilib. Almaniya, Fransa, Rusiya, Türkiyə, Gürcüstan və digər ölkələrdə keçirilən çox sayda beynəlxalq elmi simpozium, konfrans və konqreslərdə məruzə ilə çıxış edib. Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondu və YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının beynəlxalq xarakterli 2-ci "Şuşa qrantı" birgə müsabiqəsinin (2013) qaliblərindəndir. Rəhbəri olduğu "Türk xalqlarında dövlət simvol, etiket, mərasim və bayramlarının folklor baxımından genezisi" layihəsi (2015-2016) AMEA-nın elmi-tədqiqat proqramları sırasına daxil edilərək uğurla icra olunub. Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarının, Nazirlər Kabinetinin qərarları və Dövlət proqramlarının icrası sahəsində AMEA-da həyata keçirilən bir çox tədbirlərin təşkilatçısıdır.

Muxtar Kazımoğlunun ictimai, elmi-təşkilati fəaliyyəti dövlət qurumlarının, eləcə də elmi və ictimai təşkilatların, o cümlədən AMEA Rəyasət Heyətinin fəxri fərmanları, diplom, mükafat, təşəkkür və tərifnamələri ilə qeyd edilib. Elmin inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin Fəxri diplomuna (2015), AMEA Rəyasət Heyətinin Fəxri fərmanına (2015), Türkiyənin İqtisadi İnkişaf və Sosial Araşdırmalar İnstitutunun "Bilim Onur Ödülü"nə (2021), Mahmud Kaşğari adına Beynəlxalq Fondun "Mahmud Kaşğari" medalına (2018), Qazaxıstanın Əl-Fərabi adına Milli Universitetinin yubiley medalına (2018), "Bakı Dövlət Universitetinin 100 illiyi" yubiley medalına (2020), Qafqaz-Media İctimai Birliyinin "Heydər zirvəsi" medalına (2021), "Dədə Ələsgər Ocağı" İctimai Birliyinin "Aşıq Ələsgər-200" yubiley medalına (2021), Özbəkistanın Miqumi adına Kokand Dövlət Pedaqoji İnstitutunun "Fəxri professor"u adına (2023), Kərkük Kültür Dərnəyinin "Kərkük mədəniyyətinə, ədəbiyyatına və folkloruna xidmət ödülü"nə (2023) layiq görülüb. "Heydər Əliyevin 100 illiyi" yubiley medalı ilə təltif olunub.

Muxtar müəllimi bir daha yubileyi münasibətilə təbrik edir, ona uzun ömür, can sağlığı, yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**